**UOT 1(091)** **Səh. (32-41)**
**DOİ: https://doi.org/10.59849/2219-7370.2024.31.32**

# FÜZULİNİN "MƏTLƏ ÜL-ETİQAD"ƏSƏRİNDƏ FƏLSƏFİ FİKİRLƏRƏ MÜNASİBƏT

**Zeynəddin Şabanov**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, aparıcı elmi işçi
zeynaddin.shabanov@gmail.com
https://orcid.org 0000–0003–4102–6250

## XÜLASƏ

Məqalədə dahi Azərbaycan şair-filosofu Məhəmməd Füzulinin dünya fəlsəfə irsinə münasibəti ətraflı tədqiq edilmişdir. Bildirilir ki, şairi bir sıra fəlsəfi məsələlər maraqlandırmış və onların mahiyyətinə enmək üçün Füzuli antik fəlsəfəni, qədim və orta əsrlər Şərq fəlsəfəsini incələmiş, filosof-mütəfəkkirlərin, ayrı-ayrı fəlsəfi məktəblərin fikirlərini təhlil edərək münasibətini bildirmişdir. Məsələlərə münasibətini bildirərkən şair İslam dini və onun müqəddəs kitabından dəlillər gətirmişdir. Şair elmli və bilikli olmağı cəmiyyətin inkişafı üçün əsas amil hesab etmişdir. Onun fikrincə, əsl səbəbin və həqiqətin əldə olunması üçün bilikli olmaq ən əsas vasitədir; buna görə də müəllimlərə və alimlərə onların əvəzolunmaz fəaliyyətlərinə görə cəmiyyətdə yüksək qiymət verilməlidir.
**Açar sözlər:** şair, fəlsəfə, insan, cəmiyyət, ruh, bədən, ağıl, bilik, varlıq

# ATTITUDE TO PHILOSOPHICAL IDEAS IN "MATLA-UL-ITIQAD" BY FUZULI

**Zeynaddin Shabanov**
Doctor of philosophy, associate professor
ANAS Institute of Philosophy and Sociology, leading researcher, Azerbaijan
zeynaddin.shabanov@gmail.com
https://orcid.org 0000–0003–4102–6250

## ABSTRACT

In the article, the attitude of the great Azerbaijani poet-philosopher Muhammad Fuzuli to the world philosophical heritage is studied in detail. It is said that the poet was interested in a number of philosophical issues, in order to get to the essence of them, Fuzuli studied the ancient philosophy, ancient and medieval Eastern philosophy, analyzed the opinions of philosophers-thinkers and different philosophical schools and expressed his attitude. When expressing his attitude to the issues, the poet brought evidence from the Islamic religion and its holy book. The poet considered being scientific and knowledgeable as the main factor for the development of society. According to him, being knowledgeable is the most important tool for obtaining the real reason and truth. Therefore, teachers and scientists should be highly valued in the society for their invaluable activities.
**Keywords:** poet, philosophy, human, society, soul, body, mind, knowledge, existence

# ОТНОШЕНИЕ ФИЗУЛИ К ФИЛОСОФСКИМ ИДЕЯМ В «МАТЛА-УЛ-ИТИКАД»Е

**Зейнаддин Шабанов,**
ведущий науч. сотрудник Института Философии и Социологии НАНА
доцент, доктор философских наук
zeynaddin.shabanov@gmail.com
https://orcid.org 0000–0003–4102–6250

## АННОТАЦИЯ

В статье подробно изучается отношение великого азербайджанского поэта-философа Мухаммада Физули к мировому философскому наследию. Поэт получил всестороннее образование, изучал античную философию, древневосточную и средневековую восточную философию, анализировал мнения философов-мыслителей из разных философских школ. Занимался преподаванием, служил хранителем святых мест, выражая свое отношение к исламской религии и ее священной книге. Поэт считал науку и знания главным фактором развития общества. По его словам, «знание — важнейший инструмент для получения истины, поэтому учителей и ученых необходимо высоко оценивать в обществе за их неоценимый вклад в получении знаний и истин».
**Ключевые слова:** поэт, философия, человек, общество, душа, тело, разум, знание, существование

## Giriş

Dahi söz ustası, sənət korifeyi, Azərbaycanın, o cümlədən bütün türk, müsəlman dünyasının görkəmli filosof-şairi, təsəvvüf poeziyasının tanınmış nümayəndəsi Məhəmməd Füzulinin poeziya və nəsr nümunələrində bir sıra vacib mövzulara – irfani məhəbbət, ilahi eşq, sevgi, düzgün və ədalətli idarəetmə, haqsızlığa qarşı mübarizə, qadın hüquqsuzluğu, dostluq, humanizm və s. kimi məsələlərə toxunulmuş, maraqlı fikir və mülahizələr irəli sürülmüş, tövsiyələr verilmiş, çağırışlar edilmişdir.

Ədəbi şöhrəti bütün islam coğrafiyasında yayılan, Şərq ədəbi mühitinə əvəzsiz töhfələr verən, özündən sonrakı bədii fikirdə davamlı bir ədəbi ənənə və məktəb yaradan orta əsrlər Azərbaycan ədəbiyyatının ustad sənətkarlarından olan Məhəmməd Füzuli mütəfəkkir şair bənzərsiz şeir və nəsr nümunələri ilə Azərbaycan ədəbiyyatını xeyli zənginləşdirə bilmişdir. Rəngarəng janr xüsusiyyətlərinə malik olan Füzuli lirikası fərqli üslub və fərqli poetik keyfiyyətlərinə görə diqqəti daha çox cəlb edir. (8).

İnsanın daxili aləmini dərindən duyan və tərənnüm edən şair əsərlərini yazarkən heç bir mənəvi qüsura yol verməmiş və bununla da öz yaradıcılığında əxlaqi dəyərlərin daima yüksək səviyyədə qalmasına çalışmışdır. Əslində, orta əsrlərin elmi təfəkkürü ilə yanaşsaq, həqiqətə çatmaq yolunu tutan şair şəriət-təriqət, mərifət-həqiqət mərhələlərində demək olar ki, sona qədər yüksəlmişdir (4).

Azərbaycan, ərəb və fars dillərində 16 iri həcmli əsərlərin müəllifi olan dahi şairin yaradıcılığının böyük hissəsini lirik şeirlər, aşiqanə qəzəllər təşkil edir. Şairin şah əsəri onun ölməz "Leyli və Məcnun" məsnəvisi hesab olunur. Bir sıra epik alleqorik əsərlər müəllifi olan şair oxucuya dərin fəlsəfi, arifanə fikirlər aşılayır. Füzuli yaradıcılığının tədqiqatçıları, istər Qərb alimləri (İ.Hammer - Purqştal, E.Qibb, E.Braun, M.Hartman, Yan Ribka, S.Plyaskovitska-Rimkeviç), istər Rusiya və sovet (V.Smirnov, A.Krımskiy, Y.Bertels), istər Türkiyə (M.Körpülüzadə, İ.Hikmət, Z.Nuşirvan, B.Çobanzadə, Abdulqadir Qaraxan), istərsə də Azərbaycan alimləri (Abdulla Sur, F.Köçərli,

H.Araslı, Mir Cəlal, M. Quluzadə, Ə.Cəfər, A.Rüstəmova, N.Araslı, F.Qasımzadə, V.Feyzullayeva, S.Əliyev və digərləri) olsun, şairin ecazkar yaradıcılığının orijinallığını, poetikasının yüksək bədiiliyini və incəliyini qeyd edir, onu Azərbaycan-türk ədəbiyyatı tarixində ən həssas lirik və romantik şair adlandırırlar (2,s. 8).

Füzuli özündən sonrakı türkdilli ədəbiyyatın inkişafına güclü təsir göstərmiş, yaşadığı əsrdən başlayaraq müasiri olan sənət nəzəriyyəçiləri və ədəbiyyatşünaslar onun yaradıcılığı ilə maraqlanmış və Füzulinin əsərləri rus, alman, ingilis, fransız, italyan, ispan, rumın, macar, polyak, gürcü və sair dillərə tərcümə edilmişdir (3, s.14).

Belə dərin fikirlərinə görə tərəqqipərvər bəşəriyyət şairə yüksək qiymət vermiş, beynəlxalq təşkilatlar səviyyəsində 500 illik yubileyi təntənə ilə keçirilmiş, elmə, ədəbiyyata, mədəniyyətə dəyər verən ölkələrdə sanballı tədbirlər keçirilmişdir. Şairin "Divan"ının əlyazma nüsxəsi 24-27 oktyabr 2017-ci il tarixlərində YUNESKO-nun "Dünya yaddaşı" Proqramının Beynəlxalq Məşvərət Komitəsinin XIII iclasında YUNESKO-nun "Dünya yaddaşı" beynəlxalq reyestrinə daxil edilmişdir.

Füzulinin şeirləri eşq və məhəbbət duyğularını tərənnüm edən ifadələrlə bəzədilsə də məqsəd etibarilə əqli və əxlaqi keyfiyyətlərin tərbiyəsi və təbliği məsələsinə həsr edilmişdir. Buna görə də Füzuliyə təkcə "eşq", "məhəbbət" şairi kimi deyil, həm də mütəfəkkir və ustad şair kimi də baxmaq lazımdır. Onun dünyagörüşündə insan, mənəviyyat, əxlaq, etika, estetika problemləri əsas yer tutmuşdur. Məhz bu problemi özünün şəxsi nümunəsində həll etməyə çalışan şair tərcümeyi-halında yazır: "Mən bütün ülüm və fünunu özündə toplamış bir insan olmaq üçün çalışırdım" (6, 24).

Professor Nizami Cəfərov yazır ki, Məhəmməd Füzuli öz yaradıcılığı ilə ana dilinin keşiyində durmuş, ana dilini zamanın hər cür təzyiqindən, sınağından çıxarıb dövrümüzə qədər yaşadan nadir istedadlardandır. M.Füzuli anadilli əsərlərində Azərbaycan türk dilinin xəlqi, milli köklərindən, xalqın dilində əsrlərlə işlənib cilalanmış söz və ifadələrdən maksimum istifadə edərək özünün sələfləri — Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai kimi söz ustalarının milli ənənələrə köklənən üslubi orijinallığını yaradıcı şəkildə davam etdirmiş, özündən sonra davamçıları olan yüzlərlə xələflərinin yaradıcılıqları üçün mükəmməl sınaq meydanı, istiqamətverici faydalanma mənbəyi olmuşdur. Biz bilirik ki, Füzuli dünya ədəbiyyatı tarixində heç bir başqa şairlə müqayisə edilməyəcək lirik şair olmuşdur. Xalq yazıçısı Mir Cəlal Paşayevin dediyi kimi, "Füzuli ölməz lirikadır; qəlb şairi, sevgi şairidir (5).

## Elm, mərifət, ağıl

Filosof-şair həm Şərq, həm də Qərb fəlsəfi incilərindən əxz etdiyi biliklərdən də yaradıcılığında yeri gəldikcə istifadə etmişdir. Füzuli bildirir ki, bu biliklərə yiyələndikdən sonra dörd rüknü (sütunu) olan bir ev tikdim; belə ki, onun hər bir təməlində iman bağına açılan bablar (qapılar) vardır. Belə bir binanı "Mətlə-ül-itiqad fi-mərifəti-l-məbdəi vəl-məad" – "Başlanğıc və sonun dərkinə aid etiqada giriş" adlandırdım. Belə ki, birinci rükn — elm biliyi (mərifəti) və bilik (mərifət) elmi; ikinci rükn — aləmin vəziyyətlərinin biliyi; üçüncü rükn — vacibə (Tanrıya) aid bilik və sonuncu-dördüncü rükn — peyğəmbərliyə və ona aid olanlara dair biliklər haqqındadır.

Qeyd edək ki, "Mətlə-ül-itiqad" fəlsəfə ilə kəlamı özündə birləşdirən teoloji risalədir, traktatdır. Müəllif bu əsərdə elm və mərifət (bilik) məfhumlarına müxtəlif təriflər verir, mərifətin vacibliyi məsələsinə toxunur və mərifətin növlərindən bəhs etməklə onların əldə edilməsi üsullarını araşdırır. Əsərdə bəhs edilən mövzular arasında kainatın mənşəyi və mahiyyəti haqqında fikirlər də öz əksini tapır. Burada müqayisəli-tipoloji təhlil verməkdə müəllifin məqsədi onları eyni bucaq altında cəmləmək deyil, mövzunun mahiyyətini daha dərindən açıqlamaqdır. Eyni yanaşma ilə əvvəlcə insanların peyğəmbərlərə ehtiyacı məsələsində filosofların mövqeyi sadalanmış, daha sonra isə Allah-insan arasındakı əlaqə, insan növünün psixoloji və sosioloji quruluşu nəzərə alınmaqla peyğəmbərliyin zəruriliyinə dair dəlillər gətirilmişdir. Məhəmməd Füzuli kəlam bəhslərində rasionalizm metodundan istifadə etsə də bununla belə, o, əqli və nəqli dəlillərdən tarazlaşdırılmış və balanslı şəkildə faydalanmışdır. Bu səbəbdən də o, tanımanı mümkün olan bir

iş, əqli və nəqli isə bu tanımanın iki mənbəyi saysa da ilahi zatın tanınması məsələsində əqli qeyri-kafi bir faktor hesab etmiş və ilahi sifətləri tanımaqda da əql və vəhyin birgə tarazlı şəkildə istifadə edilməli olduğunu bildirmişdir (7, s.71).

Əsərdə filosof-şair mövcudata əql və hissiyyat aspektindən baxaraq qeyd edir ki, hər hansı bir cinsə aid olan növ, hər hansı növə aid olan sinif, hər hansı sinfə aid olan fərd və hər hansı fərdə aid olan bir üzv istər iradə ilə, istərsə də iradəsiz olaraq, mütləq bir işlə məşğuldur, hərəkətdədir və fəaliyyətdədir.Yəni, Füzuli mövcudatı tam və hissənin qarşılıqlı əlaqəsində, vəhdətdə götürürdü. Tamı təşkil edən hissələr arasında bir bağlılığın, qarşılıqlı əlaqənin olmasını zəruri hesab edirdi. Onun fikrincə, məhz belə əlaqələr nəticəsində tam öz bütövlüyünü qoruyub saxlayır.

O, bütün mövcudatın məkan və zaman daxilində daim hərəkətdə olduğunu bildirirdi. Füzuli özünün də işlə məşğul olduğunu bildirirdi. O öz işini "sözü nəzmə çəkmək" sənəti adlandırırdı. Fəaliyyət, hərəkət olmadan mövcudatın var olmasını mümkünsüz hesab edərək bildirirdi ki, yaradılan bütün predmetlər və canlılar mütləq hərəkətdə olmalıdırlar. Müasir fəlsəfə də hadisə və proseslərin sükunət və hərəkətin vəhdətində mövcud olmasını isbatlayır. Belə ki, tərpənməz hesab etdiyimiz dağlar, qayalar, əşyalar, cansız varlıqlar hərəkətsiz kimi görünsələr də əslində, onların daxilində daim mexaniki, kimyavi, fiziki hərəkət baş verir, onlar nisbi sükunətdədirlər.

Hərəkət kəmiyyət, keyfiyyət, məkan ilə əlaqədardır. Bunlar da cisim üçün zəruridir. Füzuli əsərində bildirir ki, bəzi qədri filosoflar fəaliyyəti tamamilə Tanrıdan sərfnəzər etmiş və demişlər ki, insan azad fəaliyyət göstərir və Tanrı onların hərəkətlərinə məsuliyyət daşımır. Cəbrilər isə insanın öz fəaliyyətində azad olmadığnı deyir, bütün fəaliyyətlərin Tanrının qüdrəti ilə yerinə yetirildiyini bildirirlər.

Ağıl və ehkam məsələsinə gəldikdə Füzuli ağılın ehkamdan üstün olduğunu təsdiq edərək bildirirdi ki, Allah insanı başqa varlıqlardan ona görə üstün yaratmışdır ki, insan işləri ağıl və idrak ilə idarə edir. Buna görə ağıl və idrakdan uzaq olmaq, bu alətləri işlətməməyə, fəaliyyətsizliklə və etinasızlıqla bu nemətləri korlamağa səbəb olar. Ağıllı adam öz yaranışı, əvvəli haqqında düşünməli, öz xilqətinin əslini, mahiyyətini araşdırmalı, öz mənşə və qayıdış yerinin vəziyyətini dərk etməyə çalışmalı və sual-cavab zamanını nəzərdən qaçırmamalıdır, axirət dünyasına faydalı əməllərlə getməlidir, sonuncu günün hesabatına hazır olmalıdır.

Füzuli insanın kamilləşməsi üçün biliklərə yiyələnməni zəruri hesab edirdi. Biliklərin ən yaxşısı isə onların ən çətini və ən xeyirlisidir. Bu isə ruhani səadətdən və insanın kamal və inkişafından ibarətdir. Şair iki növ biliyi fərqləndirirdi. Birincisi, dünya işlərinə, məsələn, yaşayış vəsaitinə aiddir. İkincisi, din işlərinə aiddir ki, bu da iki növdür: birincisi, etiqadlara, ikincisi isə ibadətlərə aiddir. Etiqadlar da iki növdür: birincisi, vacibə, yəni Allaha aid, ikincisi isə mümkünə, yəni yaranmışlara aiddir. Allaha aid olan etiqadlar da iki növdür: birincisi, onun Zatına, ikincisi, sifətlərinə, yəni əlamətlərinə aiddir. Başqa bölgüyə görə, biliyi, əməli və nəzəri olmaqla, iki yerə bölürdü. Əməli biliyə nəfsə aid olan əxlaq elmini, cəmiyyətin xırda bir hissəsinə aid olan biliyi, yəni ailə idarəsi kimi, ya da bütün cəmiyyətə aid olan biliyi, yəni ölkə siyasəti kimi daxil edirdi.

Şairə görə, biliyi daha iki növə bölmək olar. Birincisi, əməli, ikincisi isə nəzəri bilikdir. Əməli bilik özü də üç növdür: birincisi, nəfsə (fərdə) aid olan əxlaq elmidir; ikincisi, cəmiyyətin ya xırda bir hissəsinə aid olan bir bilikdir ki, bu, ailə idarəsindən ibarətdir, ya da bütün cəmiyyətə aid olan bilikdir ki, bu da ölkə siyasəti (idarəsi) adlanır. Məqul (rasional) və mənqul (rəvayətə əsaslanan) elmlər və ədəbiyyat buna misal ola bilər. Bütün bunların hər birisi üçün bir-birindən fərqlənən istilahlar vardır (8).

Füzuli nəzəri biliyin üç cür olduğunu bildirirdi. Çünki, nəzəri bilik varlığında maddənin iştirakı ya şərt olmayan və ya şərt olan əşyaya aiddir. Birincisi, İlahiyyatdır. Məsələn, sadə və mücərrəd biliklər (belədir). İkincisi, elə əşyaya aiddir ki, onu düşünmək üçün maddə haqqında düşünmək ya nəzərə alınmır və ya nəzərə alınır. Birincisi, riyazi elmlərdir. Zahirdə varlığı olmayan ümumi məsələlərə aid biliklər (buna misal ola bilər). İkincisi isə təbiyyatdır. Mürəkkəb əşyaya aid bilik (buna misal ola bilər).

Başqa bölgüyə görə bilik iki yerə bölünür: birincisi, mahiyyət etibarilə dünya işlərinə və nəticə etibarilə axirət işlərinə aiddir. Adi sənətlər, məsələn, əkinçilik, ticarət, dərzilik və sairə buna misal ola bilər. İkincisi isə mahiyyət etibarilə axirət işlərinə və nəticə məqul (rasional) və mənqul (rəvayətə əsaslanan) elmlər və ədəbiyyat buna misal ola bilər. Bütün bunların hər birisi üçün bir-birindən fərqlənən istilahlar vardır (1, s.114).

**İlk yaradılış haqqında**

Füzuli Miletli Falesə müraciət edərək bildirir ki: "Aləmin bir yaradıcısı vardır. Əql bu yaradıcının sifətini mahiyyətcə deyil, ancaq onun əsərləri etibarilə dərk edə bilər. O, elə bir ünsür yaratmışdır ki, onda varlıqların və məfhumların şəkli vardır. İstər mənəvi, istərsə də maddi aləmdə olan bütün varlıqların şəkli həmin ünsürdə vardır" (1, s.117). Şair Faleslə razılaşaraq ilk ünsürün sudan yarandığını söyləyirdi. Suyun hər bir şəklə düşmək qabiliyyəti olduğuna görə, onun sıxlaşıb bərkiməsindən yer, durulmasından od və seyrəkləşməsindən hava əmələ gəlmişdir. Göyün isə odun tüstüsündən törədiyni bildirirdi. Müqəddəs kitabımızdakı "Onun ərşi su üzərində idi" ayəsinə diqqəti yönəldirdi. Falesin fikrini Anaksaqor da qəbul etmişdir. Füzulinin ana dilində yazılmış «Su» qəsidəsində Məhəmməd Peyğəmbərin tərifi yer alır. Şair Peyğəmbərin tərifindən ötrü sudan bir poetik obraz kimi istifadə edir. Bu da təsadüfü səciyyə daşımır. Füzuli suyu paklıq, saflıq, təmizlik rəmzi kimi götürür və Peyğəmbərin tərənnümü üçün bu əlamətlərdən lazımi formada istifadə edir (6, s.37).

Füzulinin araşdırmasına görə, Platon da Falesə əsaslanmış və onun irəli sürdüyü ünsürü "Platon ideyaları" adı ilə məşhur olan ideyalarda ifadə edərək demişdir: Aləm iki hissədən ibarətdir: 1. Əql aləmi ki, əqli qəliblər və ruhani surətlər oradadır. 2. İçərisində cismani bədənlər və növə mənsub cisimlər olan və parlaq bir güzgü kimi əşyanın şəklini özündə əks etdirən duyğu aləmi; belə ki, bu aləmdəki varlıqlar o aləmdəki varlıqların izləri (inikası)dir. "Gözəlliyi fəlsəfi problem olaraq ilk ortaya qoyan və ideyalarla izah edən Platondur. Onun fikrincə, ideyalar dünyası real dünyadır, yaşadığımız dünya isə sadəcə, bir təmsildir. Filosof görünən aləmi görünməyənlə izah edərək yaşadığımız dünyanı təsirsiz bir təsvir və təqlid kimi qəbul etmişdir. Ona görə ideyalar dünyası varlıq iyerarxiyasının zirvəsindədir. Üstdə yaxşılıq ideyası, sonra həqiqət və gözəllik ideyaları gəlir. Platon gözəlliyin yaxşılıq ideyasının bir hissəsi olduğunu ifadə edir. İdeyalar sonradan formalaşmadığı üçün yox ola və heç bir dəyişikliyə məruz qala bilməz. Platona görə, gözəlliklə yaxşılıq arasında heç bir fərq olmadığı üçün hər ikisi eyni mahiyyətdən gəlir. Lakin gözəllik ideyası, digərlərindən fərqli olaraq öz parlaqlığına və əzəmətinə görə maddədəki ruh tərəfindən qavranılır. Platon dəyişən və köhnələn bir obyekti gözəl hesab etmir. Belə olduqda obyekt davamlı olaraq özündən bir şey itirir və bir müddət sonra yox olur. Lakin gözəllik ideyası bütün zamanlardan kənardır və buna görə də həmişə gözəl olaraq qalır" (9).

Pifaqora xitabən Füzuli də Tanrının əql ilə ruhu eyni zamanda yaratdığını bildirirdi. Aristotel əsərlərinin mütaliəsindən sonra belə bir fikri dəstəkləyir ki, vahid yaradıcıdan ilkin fəal olan əql meydana gəlmişdir. Əql öz mahiyyəti etibarilə vacibdir. Əql öz mahiyyətini və səbəbiyyətini xatırlamış və bu xatırlamadan müxtəlif varlıqlar meydana gəlmişdir. Füzuliyə görə, varlıqların əsasında məhəbbət və ədavət durur. Bunlar xeyir və şərin səbəbləridir. Var olmanın, dayanıqlığın səbəbi məhəbbət, parçalanma və dağılmanın səbəbi isə ədavətdir.

Dahi şair elmləri hüzuri və hüsuli olmaqla, iki növə bölürdü. Hüzuri – yəni, bildirmə vasitəsindən asılı olmayan elmdir. Məsələn, Tanrının bütün məfhumlar haqqındakı elmi və yaxud bizim öz varlığımız haqqındakı elmimiz belədir. Hüsuli isə vasitədən asılı olan elmdir. Məsələn, bizim bəzi predmetlərin mahiyyətləri haqqındakı elmimiz belədir. Belə bir elmə bilik də deyilir, çünki bu elmin bir bildirənə ehtiyacı vardır. Bunları helm və elm kimi də göstərmək olar. Şair külliyyatı və yaxud mürəkkəb olanları dərk etməyi elm adlandırır, lakin təfərrüat və yaxud sadə predmetləri dərk etməyi bilik-mərifət hesab edirdi (1, s.124).

Füzuli yazır ki, kəşf əhli olan bəzi tədqiqatçıların dediyinə görə, bilik, mərifət elmdən yüksəkdir; çünki, onların fikrincə, İlahiyyat haqqında məsələlər və islahatlara aid hər nə

varsa, elmdir, Tanrının zatı və sifətlərinə aid olanlar isə bilikdir (mərifətdir). Məsələnin belə qoyuluşu həqiqətin əksinədir; çünki, Tanrıya öz kəlamında (Quranda) bilik deyil, elm sifəti istinad edilir və beləliklə, elm bilikdən yüksəkdir. Ola bilsin ki, Füzuli burada hissi idrakın verdiyi informasiyalara, ilkin biliklərə nisbətdə, rasional idrakın irəli sürdüyü bilikləri ehtiva edən elmi nəzərdə tuturdu (1, s.125).

Füzuli Aristotelə istinad edərək onun aləmin yaranması haqqındakı fikirlərini təhlil edərək yazırdı: "İlk ünsür əvvəlcə yox imiş, sonradan əmələ gəlmişdir. Onun yoxluqdan vücuda gəlməsi hərəkətdir. Mövcudiyyəti hərəkət vasitəsilə olan hər bir şeyin qalıb yaşaması hərəkət vasitəsilə olmalıdır. Əvvəlcə (o), üç səmtdə, yəni boy (uzunluq), en və dərinlik istiqamətində hərəkət edərək cisim olmuşdur. Sonra bütünlüklə deyil, (bir hissəsi) dairəvi şəkildə hərəkət etmişdir. Ona görə (bütünlüklə deyil) ki, dairəvilik ortanın mövcud olmasını tələb edir. Beləliklə, onun ortadakı hissəsi hərəkətsiz qalmış və digər hissəsi hərlənmişdir və nəticə etibarilə cismin hərlənən hissəsi ilə onun hərəkətsiz hissəsi bir-birinə sürtünmədə olmuşdur. Sonra hərlənən hissənin sürətinin artması nəticəsində hərəkətsiz hissədə istilik, qızışma və yumşalma əmələ gələrək ərimiş və sonra oda çevirilmişdir. Lakin od fələyə nisbətən daha az sürətlə hərəkət etmiş və bu hərəkət nəticəsində hərəkətsiz sahənin bir hissəsində hərəkət əmələ gəlmiş və həmin hissə havaya çevirilmişdir. Hərəkətsiz sahənin hava ilə toxunan hissəsi olan cisim ilk hərəkət edən (fələk)dən uzaq olduğuna görə, hərəkət etməmiş və bu hərəkətsizlik nəticəsində soyumuşdur. Sonra hava ilə qonşu olduğuna görə rütubətlənərək suya çevirilmişdir. Ortadakı hissə isə fələklərdən uzaq olduğuna görə, hərəkət və istilikdən heç də istifadə edə bilməmiş və hərəkətsiz, soyuq torpağa çevirilərək, mürəkkəb varlıqlar ondan əmələ gəlmişdir" (1, s.113) .

Füzulinin fikrincə, cövhərlər — substansiyalar beş cürdür. Onlardan birincisi — surət (şəkil), ikincisi — həyulə (maddə), üçüncüsü — cisim, dördüncüsü nəfs (ruh), beşincisi isə əqldən ibarətdir. Füzuli əqlləri də biri-birindən fərqləndirirdi: birincisi — maddi əqldir; ikincisi — nəzəri əqldir; üçüncüsü, əməli əqldir; dördüncüsü, istedad əqlidir; beşincisi, gizlində, potensial olan əqldir; altıncısı, nəticə əqlidir.

Füzuli duyğuları zahiri və batini növlərə bölürdü. Zahiri duyğular beşdir ki, eşitmə, görmə, dadma, toxunma, iybilmə duyğularından ibarətdir. O, batini duyğuların da beş cür olduğunu söyləyirdi: ortaq hiss, təsəvvür, xəyal, hafizə və özünüidarədən ibarətdir. Daxili qüvvələrin səkkiz olduğunu bildirirdi: cazibə, qidalandıran, saxlayan, becərən, törədən, surət verən, ifraz edən, rədd edən və həzm edən qüvvələrdən ibarətdir.

Varlıqların isə hərəkət, sükunət, birləşmə və ayrılmadan ibarət olduğunu söyləyirdi. Hərəkət bir predmetin iki anda iki yerdə olması, sükunət isə onun iki anda eyni bir yerdə olmasıdır. Birləşmə isə iki cismin iki məkanda elə yerləşməsidir ki, onların ikisinin arasına başqa bir cövhərin girməsi mümkün olmasın. Ayrılma isə onların iki cismin iki məkanda elə yerləşməsidir ki, onların arasına başqa bir cövhərin girməsi mümkündür. Bu vəziyyətlər, şübhəsiz ki, əvəz edilən və dəyişəndir. Onların törənmiş olmasının sübutu bundan ibarətdir ki, onlar varlıqdan sonra yox olur.

Hadisələrin yerləşdiyi bütün yerlər, məkanlar isə törəmədir və hər bir törəmənin, yaxud törənmişin törədiciyə ehtiyacı vardır. Deməli, aləmin törədiciyə ehtiyacı olduğunu söyləyirdi. Şeyx Əbu Əli ibn Sinanın vacib və mümkün varlıq haqqında dediklərini qəbul edirdi.

Nəticə etibarı ilə hissələrin tamdan əvvəl olduğu meydana çıxır. Bunu da "boş söz" adlandırırdı. Sonra, əgər deyilsə ki, biz nə tamla maraqlanırıq, nə də hissələrlə, bu, elmsizlikdir. Əgər arif adam bilsə ki, onun özünün mahiyyəti, sifətləri və əməlləri vardır və əməlləri onun mahiyyətindən sifətlər vasitəsilə nəşət edir və bilsə ki, onun mahiyyəti törənmişdir, başa düşər ki, hər bir törənmişin törədicisi vardır.

İnsan özünün həyatdakı rolu barədə fikirləşsə, öz vücudunun mahiyyəti haqqında həm icmal şəklində, həm də təfsilatı ilə düşündükdə özünün doğuluşdan ölümə qədərki vəziyyəti haqqında fikir yürütdükdə, varlıq, yoxluq, sağlamlıq, xəstəlik, yaşlılıq və uşaqlıq haqqında düşündükdə bilər ki, onun sərbəst olan bir idarəedicisi və bir hərəkətvericisi vardır. Elmli adam öz bədəninin zahiri və daxili üzvlərinin

tərkibinə, həmin üzvlərdə yerləşmiş olan duyğular və qüvvələrə, üzvlərdən nəşət edən əməllərə, fəaliyyətlərə, bədənindəki nizamın həmin duyğular və qüvvələrə əsaslandığına baxdıqda belə bir məsələ ilə tanış olar ki, bütün bu müxtəlif vəziyyətlər bədənin hissələrindən birisinin təsirinin nəticəsi deyildir; çünki, bədənin hissələrindən hər hansı birisi imkandan həqiqətə doğru hərəkətdədir. Bu isə xarici hərəkətvericiyə möhtacdır. Beləliklə, bədənin ruhunu etiraf edər.

Füzuli ilk yaradıcıdan nəşət edən varlıqları "xeyirli varlıq" adlandırırdı və şərin əsla olmadığını bildirirdi. Şair Şeyx Əbu Əli ibn Sina ilə razılaşaraq bildirirdi ki, xeyir bir şeyin varlığından və yaxud onun bitkinliyinin olmasından, şər isə bir şeyin yoxluğundan və yaxud onun bitkin olmamasından ibarətdir. Bir şeyin ilk əvvəldən şər olaraq əmələ gəlməsi qeyri-mümkündür; çünki, onun yaradıcısı xalis xeyirdir. Bununla isbat edirlər ki, ruh ilk əvvəldən xalis xeyir olaraq əmələ gəlmişdir və beləliklə, bütün yaxşı işlər həqiqətən deyil, imkan dairəsində mövcuddur; çünki, insanın əməldə bitkinliyi onun mövcudluğu zamanından sonraya aiddir. Bu bitkinlik tədriclə əqlin təsiri vasitəsilə imkandan həqiqətə çevirilir. Deməli, əqlin həqiqətə çevirdiyi işlər xeyir işlərdir; çünki, bu işlər bitkinlik vasitələri səbəbləridir. Lakin əqlin həqiqətə çevirmədiyi işlər şər işlərdir. Çünki, bu işlər ruhun çatışmaz vəziyyətdə qalması səbəbləridir. Şair Əbül Həsən əl-Əşərinin fikrinə münasibət bildirərək yazırdı ki, bütün işlər Tanrıdandır, xeyir ilə şər də Tanrıdandır, İnsanın isə ancaq kəsb etmək iradəsi vardır. Belə ki, əgər xeyir istərsə, onu kəsb edər, savaba çatar və əgər şər istərsə, onu kəsb edər və cəzasını görər. Beləliklə, iradə insanın, qüdrət isə Allahındır (1, s.134).

Yolunu azmış, dəyərləri pozmuş adamlardan ibarət olan cəmiyyətlərin pozulub dağılmaması üçün Tanrı onlara düzgün yol göstərən göndərmişdir. Tanrı adildir; o, yaratdığı hər hansı bir xalqa həm mərhəmət, həm də sübut olaraq bir peyğəmbər göndərmişdir ki, gedəcəkləri yolu göstərsin və məşğul olacaqları ibadəti təyin etsin. Ancaq bu xalqların bəzisi zaman keçdikcə öz nəfslərinə tabe olmuş, əmr edilmiş yolu unutmuş, ibadətin çətinliklərini tərk etmiş və öz güzəranlarını yaxşılaşdırmaq üçün könülləri istədiyini saxlamış və Tanrının şəriətini inkar etmişlər.

Miletli Empedokla müraciət edən şair bildirir ki, mənşədən nəşət edən ilk varlıq birinci ünsür olmuşdur ki, onda həm məhəbbət (cazibə), həm də qələbə (rədd etmə) var imiş. Təbiət, mürəkkəb varlıqlara çox meyil etdiyinə görə, nəfs və əqldəki gözəlliklərin heç birisindən istifadə etməmişdir. Təbiətdən bir-birinə zidd olan varlıqlar əmələ gəlmişdir. Bunların sırasında sadə ünsürlər və mürəkkəb varlıqlar, o cümlədən mizaclar və qüvvələr olmuşdur. Təbiət mürəkkəb varlıqlarla məşğul olmuş, əqlə və nəfsə mənsub aləmləri unutmuş və tərkib aləmində cismani-şəhvani ləzzətlərə məftun olmuşdur. Sonra nəfsi-küll təbiətin məftunluğunu və coşmasını gördükdə öz hissələrindən birisini ona (təbiətə) nazil etmişdir ki, təbiətdəki coşqunluğun qarşısını alsın, onun unutduğunu yadına salsın, anlamadığını ona öyrətsin, onu bulaşdığı murdarlıqlardan paka çıxarsın və çirklərdən təmizləsin.

Füzuli ünsürlərdən əmələ gəlmiş varlıqları dərəcə etibarilə də bir-birindən fərqləndirirdi. Belə ki, bitkilər göyərib artdığına görə, cansız varlıqlardan üstündür. Heyvanlar iradi hərəkətə malik olduğuna görə bitkilərdən üstündür. İnsan ağıl və ixtiyara malik olduğuna görə heyvanlardan üstündür. Peyğəmbərlər isə peyğəmbərlik feyzinə malik olduğuna görə başqa insanlardan üstündürlər. O bildirir ki, əgər bütün insanlar bərabər olsaydılar, onların hamısı həlak olardılar. Deməli, bəşər cəmiyyəti öz məsləhətləri xeyirinə peyğəmbərlərə, düzgün yol göstərənlərə təzim etməlidir (1, s.142).

Şair insanları biri-birindən fərqləndirməyin zəruriliyindən bəhs edir. Füzuli qeyd edir ki, ağıllı adamlara qiymət vermək lazımdır k, qüsurlu adamlara tərbiyə versin, onları düzgün yola istiqamətləndirsin. Əks halda onlar doğru olmayan fəaliyyətlə məşğul olarlar. Bunun üçün də cəmiyyətin müəllimə ehtiyacı vardır. Füzuli cəmiyyətdəki insanları bilik sahibləri olan müəllimlər, ehkama inanan təqlidçilər, Tanrının mərhəmətinə nail olmuş insanlar və naqis insanlar olmaqla, fərqləndirirdi. Eyni zamanda, digər məktəblərin fikirləri ilə razılaşaraq azadlığı və məsuliyyəti qəbul etməyərək qədərə inanan və insanların fəaliyyətlərində

azad olmasını qəbul edənlər olmaqla insanları biri-birindən fərqləndirirdi.

Füzuliyə görə, insanların fitri olaraq ehtiraslardan ləzzət alması doğru deyildir. Onlar maddi həyata, zənginliyə, varlanmağa və cismani həzlərə meyil göstərirlər. Halbuki, bunlardan zərər görürlər. İnsanı bu işlərdən çəkindirən isə qiyamət qorxusu və axirətdəki hesabatdır. İnsan doğru yol tutmalı, dəyərlərə hörmətlə yanaşmalı, cəmiyyət üçün faydalı işlər görməlidir ki, son hesabat günündə hərəkət və davranışlarına görə cavab verə bilsin.

Dünyada ləzzətlə ələm bir-birinin ayrılmaz hissəsidir. Belə ki, biz ancaq ələmdən sonra ləzzəti, məsələn, xəstəlikdən sonra sağlamlığı dərk edirik, həmçinin varlıq ləzzəti qarşısında yox olmaq qorxusundan törənən ələm həyat ləzzəti müqabilində ölüm qorxusundan törənən ələm və biliklər ləzzəti qarşısında təhsil zəhmətindən törənən ələm vardır.

Füzuli insan təbiətində şəhvət və qəzəb qüvvələrinin olduğunu söyləyirdi. Məhz şəhvət və qəzəb qüvvələri vasitəsilə əlverişli, faydalı olanları özünə cəlb etmək və zərərli olanları rədd etmək qabiliyyəti qurulmuşdur. Belə ki, bu iki qüvvə insan təbiətinin bəzi cəhətlərini ələ keçirərək bir məzlumun varını əlindən almağa və yaxud onu zülm ilə öldürməyə səbəb olur. Əgər bunun qarşısında cəza verilməzsə, ədalət pozulmuş olar. Məzlumun haqqını yemək, onun hüququnu tapdalamaq olmaz. Bu, cəmiyyətə ziyan gətirər.

Ümumiyyətlə, İslam düşüncəsində axirət inancı Allah inancı ilə bilavasitə əlaqəlidir və müsəlman mütəfəkkirlərin dini-fəlsəfi fikirləri arasında önəmli yer tutur. Füzulinin insandakı fitri ölüm qorxusu, ruhun kamilliyi və ədalətin reallaşması mövzuları çərçivəsində esxatologiya təsəvvürünü əsaslandırdığını görürük. Füzuliyə görə, axirətdəki həyatın mükəmməl olması, insanın fərdi kimliyi və əxlaqi tələbləri cəhətdən məmnunedici bir həyat ola bilməsi üçün ruhla birlikdə mütləq bədən də olmalıdır. Çünki, həm varlığın bədənlə birlikdə dərk edilməsi, həm də ruhun bədəndən ayrıldıqdan sonra təkbaşına məsul sayılmaması üçün ən doğru olanı insanın mükəlləfiyyət daşıdığı halı ilə axirət həyatını yaşamasıdır. Təbiəti etibarı ilə mükəmməlliyə meyilli yaradılan ruh tam kamillik qazana bilmək üçün bədənə möhtacdır. Ruh dünyada bədənlə birlikdə olduğu zaman mükəmməllik qazana bilər. Digər bir ifadə ilə, əsl kamillik nəzəri/əqli kamillik olmaqla yanaşı, ruh tam və qüsursuz kamilləşməyə əməli/əxlaqi mükəmməlliklə birlikdə nail ola bilər. İnsanın kamilliyi digər varlıqlardan fərqli olaraq çalışmaq və qazanmaqla mümkündür. Bu həzzin kamilliyinə çatma anının ölümdən sonra olması da zərurət təşkil edir. Çünki, çalışma və əldə etmə müddəti ölüm anına qədər davam edir. Füzuliyə görə, axirət inancı insandakı ölümsüzlük arzusundan daha çox, ölüm qorxusundan qaynaqlanmaqdadır. Teist sistemlərdə Tanrı əxlaqlı bir varlıq olaraq qəbul edildiyi üçün o, dəyərləri yaradan və qoruyandır. Füzuliyə görə, Tanrının həm öz vəsflərinin bir nəticəsi olaraq həm də belə dəyərlərə sahib bir varlığı yox etməsi dini şüura zidd görünür. Buna görə də Füzulinin dini-fəlsəfi sistemində ədalətin yerini tutması nöqteyi-nəzərindən də axirət inancı əhəmiyyət kəsb edir. Füzuli axirət inancını Allahın vəsfləri, insanın yaradılış xüsusiyyətləri, ruhun ölümsüzlüyü və mütləq ədalət prizmasından əsaslandırmışdır (10).

**Ruh və bədənin nisbəti**

Füzuliyə görə, insan nəfs (ruh) və bədəndən ibarətdir. Ruhun varlığı sabitdir, insan şüurludur, təfəkkürlüdür, idarə edir, düşünür, qurur, yaradır və başqa insanlarla ünsiyyətə girdiyinə görə heyvanlardan fərqlənir. Halbuki, ruh bəsitdir (bölünməzdir). Sonra ruh nə maddədir, nə də surət, çünki, maddə ilə surət birbirindən ayrılmazdır; halbuki, ruh (maddə və surətdən) ayrıla bilər. Füzuli bildirirdi ki, ruh bəsit bir cövhərdir və cisim deyildir. Ruhun bədəndən əvvəl yarandığını söyləyirdi. Şair Aristotel və onun tərəfdarlarının ruhun bədəndən sonra törənməsini qəbul etdiyini bildirirdi. Onların fikrincə, əgər ruh bədəndən əvvəl mövcud olsaydı, sayca çox olardı və əgər (sayca çox olan bu ruhların) hər birisi üçün fərqləndirici xüsusiyyət təsəvvür etsək, onda ruhun mürəkkəb olması, yəni həm ümumi, həm də fərqlənmə cəhətlərinə malik olması lazım gələrdi. Halbuki, ruh bəsit fərz edilmişdir. Beləliklə, əvvəlcə bədən olmalıdır ki, ruhu növlərə görə şəxsi bölmələrə ayırsın. Aristotelə görə, bədən ruhun davam edib qalması üçün deyil,

onun mövcudiyyəti üçün şərtdir. Füzuli bildirir ki, ruh ürəkdə olan bölünməz bir hissədir. O, ruhun üç qüvvədən ibarət olduğunu düşünürdü. Onlardan birincisi, beyində hikmət mənşəyidir. İkincisi, ürəkdə qəzəb mənşəyidir. Üçüncüsü, qaraciyərdə şəhvət (ehtiras) mənşəyidir. Eyni zamanda, ruh beyində olan bir qüvvə - hiss və hərəkət mənşəyidir.

Ən-Nəzzama müraciər edən şair bildirir ki, ruh bədəndə gəzişən, parçalanmayan və pozulmaz cisimlərdir. Sonda belə bir rəyə gəlir ki, deyilənlərin ən doğrusunu Allah demişdir: "Ey Məhəmməd, de ki, ruh mənim Tanrımın işlərindəndir və sizə elmin az bir hissəsi verilmişdir. Siz ruhu dərk edə bilməzsiniz (1, s.129). O, ruhun bədənin pozulmasından sonra da yaşadığını qəbul edərək yazırdı ki, ruh mücərrəd və bəsit bir cövhərdir və onun varlığı bir həqiqət olduğuna görə, yox olma imkanı mümkün deyil.

İnsanın nəfs və bədəndən ibarət olmasına rəğmən Füzuli bildirirdi ki, bunlardan birisi nəcib və ruhani bir cövhərdir; digəri isə cismani qaba bir kütlədir. Bunların hər ikisi öz mənşəyinə doğru meyil göstərir və öz yoldaşı tərəfindən cəlb edilir. Əgər nəfs bədəni cəzb etməklə, onu heyvani şəhvətlərin ləzzətindən çəkindirərək paka çıxarıb yüngülləşdirərsə, qayıdan zaman (öləndə) onunla birlikdə (Ərşin) ən uca yerlərinə (cənnətə) yüksələr. Yoxsa, əgər bədən nəfsə üstün gələrək onu öz xidmətçisinə çevirib, öz xeyrinə işlədərsə və öz yaramaz işlərinə şərik edərsə və beləliklə, onu tutqunlaşdıraraq ağırlaşdırarsa, onunla birlikdə ən alçaq yerlərə (yəni, cəhənnəmə) enər. Lakin bədənin ruhu cəzb etməsi işi ruhun bədəni cəzb etməsi işindən bir neçə səbəbə görə daha asandır. Birincisi budur ki, ruh yüngül, bədən isə ağırdır. Yüngül şeyin ağır şey tərəfindən dartılması ağır şeyin yüngül şey tərəfindən dartılması kimi ola bilməz. İkincisi budur ki, ruh təbiətən yuxarıya qalxmağa, bədən isə aşağıya düşməyə meyil göstərir. Ağır şeyin yüngül şey ilə birlikdə aşağı düşməsi yüngül şeyin ağır şey ilə birlikdə yuxarı qalxmasından asandır. Üçüncüsü budur ki, bədənin inkişafı təbiidir və xarici köməyə ehtiyacı yoxdur. Halbuki, ruhun inkişafı kəsbidir, xaricdə olan bir öyrədiciyə ehtiyacı vardır və əgər öyrədici olmazsa, nöqsan halında qalar və nəticə etibarı ilə nöqsanlı şey kamil şey tərəfindən məğlub olar. Deməli, insanı inkişafa doğru yönəltmək lazımdır.

Füzuli bildirir ki, ruh ilə bədənin əlaqəsi aşiq və məşuqun əlaqəsi kimidir. Onların arasındakı ünsiyyət zaman keçdikcə daha şiddətlənir, möhkəmlənir. İstəklinin ayrılığından törənən kədər ruhun xüsusiyyətlərindəndir. Ruh və bədən bir-birini tələb edir, biri o birini tamamlayır. Beləliklə, bədən olmadan ruh üçün ləzzət ola bilməz. Bununla belə, bədən ruhun əzab çəkdiyi yerdir. Ona görə ki, bədən quruluşca, məişətcə və hadisələr qarşısında dəyişkən olması etibarı ilə ruhdan fərqlənir. Öləndən sonra ruhun bədənə qayıtmasında ləzzət və ya ələm təkmilləşmə vasitələrindəndir; belə ki, ruhu pis işlər görməyə bədən məcbur etmişdi. Əgər ruh mükafata layiqdirsə, bədən onun ən gözəl tələbatıdır ki, onun mütənasibliyini, gözəlliyinin bəzəyini və itib-batmaq təhlükəsi olmadan öz arzularına çatmasını təmin edir; hətta ruh üçün bədən mükəmməl surətdə və daimi olaraq içərisində ləzzət aldığı saraylardan da üstündür (1, s.229).

Füzuli düşünür ki, ruhlar bədəndən ayrıldıqda göyə doğru yönəlir; çünki, ruhlar göylərə mənsubdur və ülvidir. Eyni zamanda söyləyir ki, bu ruhların bəzisi keçmişdə heç bir günah etmədiyinə görə yuxarı qalxır, özünün fələklərdəki yerində yerləşir və məlum günədək, qiyamətə kimi orada qalır. Bəzisi isə günahlara bulaşdığına görə göylərə doğru yuxarı qalxmaq istədiyi zaman mələklər onlara mane olur və beləliklə, qiyamətə kimi ələm içərisində qalır. Ruhlar bədənlərdən ayrıldıqda, yaxşı ruhlar dünya əhlinin yaxşı ruhları ilə ünsiyyət saxlayır, yaxşı işlərdə onlara yardım göstərir və onlarla gəzir; pis ruhlar isə pis ruhlar ilə ünsiyyət saxlayır və şər işlərdə onlara kömək edir və onlarla gəzir. Qiyamətə qədər işin gedişi belədir (1, s.234).

Qiyamətdən sonra əməllərinə görə, insanların yerinə münasibətdə şair möminlərin behiştdə, yəni cənnətdə olacağını bildirir. Dini qaydalara əməl etməyən kafirlər isə odda yanacaq, cəhənnəmdə olacaqlar. Şair burada bir maraq doğuran fikir irəli sürür ki, bu iki yer arasında başqa bir yerin də olduğunu təsdiq edirlər. İman (yəni, əməli-saleh insan ) cəhənnəmə daxil ola bilməz; günah isə behiştə daxil olmaz. Buna görə lazım gəlir ki, günahkar mö-

minin o iki yer arasında bir yeri olsun. Yəni, dini qaydalara əməl etməsə də əməli-saleh davranışlarına, cəmiyyətə faydasına, insanlara yardımına, məzlumlara köməyinə görə bəzi insanlar bu iki mövqe arasında ola bilərlər.

Ümumiyyətlə, Məhəmməd Füzulinin şeiriyyat dünyasını zəngin bir fəlsəfi xəzinə hesab etmək olar. Belə ki, dahi şair fəlsəfənin maraq dairəsində olan məsələlərə ayrı-ayrı mütəfəkkirlərin münasibətini hərtərəfli öyrənmiş, onlara öz münasibətini bildirmiş, müqayisələr aparmış, ümumiləşdirmələr etmiş, təzadlı fikirləri araşdırmış, fərqli cəhətləri göstərmiş, maraqlananlara istiqamət vermişdir. Füzulinin dahiyanə fəlsəfi fikirləri sonralar müsəlman filosoflar tərəfindən daha da inkişaf etdirilmiş, onlar öz yaradıcılığında Füzulinin ideyalarından bəhrələnmişlər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. V cild. Bakı, "Şərq-Qərb", 2005

2.Baxşəliyeva G. Anadilli şeirimizin böyük ustadı/"Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi" mövzusunda beynəlxalq elmi konfransın tezisləri. Bakı, Elm, 2024

3. R.Hüseynov. Yoxdan var. Bakı, 2014

4.Nəcəfxanlı Ə. Hər sözüm bir pəhləvandır. "Xalq" qəzeti, 20 02 2024

5.İbrahimova S. Yaradıcılığı ilə ana dilinin keşiyində duran şair. http://www.orientalstudies.az/index.php/2013-05-15-10-02-50

6.Hüseynzadə R. Məhəmməd Füzulinin təhsil və tərbiyə haqqında fikirləri. "Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi" mövzusunda beynəlxalq elmi konfransın tezisləri. Bakı, Elm, 2024

7. Cəfərli D. Məhəmməd Füzuli və kəlam elmi. "Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi" mövzusunda beynəlxalq elmi konfransın tezisləri. Bakı, Elm, 2024

8.Quliyev E. Füzuli sənətinin mövzu dairəsi. http://www.orientalstudies.az/index.php.17.05.2024

9.Quluzadə P. Məhəmməd Füzuli və Platonda gözəlliyin mənbəyi. http://www.orientalstudies.az/index.php 22.05.2024

10. Abuzərova Ü. M.F. "Mətlə-ul-itiqad" əsəri çərçivəsində ruhun ölümsüzlüyü və esxatologiya anlayışı. http://www.orientalstudies.az/index.php 28.05.2024

**Rəyçi:** **f.e.d., prof. Əli Abasov**

**Göndərilib: 14.06.2024** **Qəbul edilib: 28.06.2024**